# Azərbaycanın tarixi-mədəni irsinə ermənilərin etdiyi qəsdə Avropa Parlamenti hələ də ikili standartlardan yanaşır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

**Azərbaycan ərzilərinin işğal dönəmində Ermənistan tərəfindən bu yerlərdə maddi mədəniyyət abidələri də vandalizmə məruz qalıb, onların bir çoxu məqsədyönlü şəkildə məhv edilib. Ölkəmiz bu prosesə dünyanın diqqətinin yönəldilməsi istiqamətində genişmiqyaslı fəaliyyət göstərib. Lakin erməni vandalizmi heç də həmişə layiqli qiymətini almayıb. Bunun ümdə səbəblərindən biri dünyada hələ də davam edən ikili standartlardır.**



### Avropa dəyərlərinə xəyanət edən Avropa Parlamenti...

Azərbaycanın yeni müstəqillik tarixində ölkəmizin üzləşdiyi əsas problemlərdən biri elə ikili standartlarla bağlı olub. Təəssüf ki, bu hal işğal vaxtı ermənilərin nəzarətində olan ərazilərdə mədəniyyət abidələrinə münasibətdə də özünü göstərib. Erməni vəhşiliyinə son verilməsi üçün ölkəmizin dünyaya etdiyi çağrışlara bir sıra beynəlxalq qurumlar adekvat reaksiya verməyib. Buna konkret nümunə qismində Avropa Parlamentini göstərmək olar. Bu məsələ Prezident İlham Əliyevin Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi zamanı da diqqət mərkəzində yer alıb. Dövlət başçısı Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrinə toxunaraq qeyd edib ki, belə sənədlərin sayı 10-u keçir: "Xüsusən də Vətən müharibəsindən sonra bir qətnamə qəbul edilmişdir. Bu, ayrıca narahatlıq doğurur, çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilir. Bu isə həqiqətə uyğun deyil. Həmin qətnamə bu ilin mart ayında qəbul olunub. Yəni, müharibə bitəndən ilyarım sonrakı vaxta təsadüf edir. Müharibə bitəndən sonra səfirliklərin nümayəndələri, siyasətçilər, Avropanın bəzi ölkələrinin parlament sədrləri, jurnalistlər tərəfindən çoxsaylı səfərlər olub. Onların hamısı Azərbaycanın mədəni irsinin tamamilə məhv edilməsinin şahidi olmuşlar. Onlar hər hansı erməni mədəni irsinin dağıdılmasını görmədilər. Əksinə, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur. Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayırdılar, şəhərlərimizi və kəndlərimizi yerlə-yeksan ediblər. Hazırda biz səfərlər təşkil edirik və Azərbaycanın hər bir vətəndaşı Şuşanı, Füzulini və Ağdamı ziyarət edə bilər. Hər kəs erməni vandalizminin, barbarlığının miqyasını görə bilər. Belə şəraitdə Azərbaycanı heç vaxt etmədiyimiz məsələlərdə ittiham edən Ermənistanın və ermənilərin ərazilərimizdə törətdiyinə göz yuman birtərəfli qətnamənin qəbul edilməsi tamamilə qəbulolunmazdır". Təbii ki, belə yanaşma ilə Avropa Parlamenti Azərbaycana qarşı ikili standartlar mövqeyindən əl çəkmədiyini, qərəzli yanaşma sərgilədiyini, erməni diaspor və lobbi qüvvələrinin təsiri altında olduğunu təsdiqləyir. Azərbaycana və digər bir sıra ölkələrə qarşı daim ədalətsiz, beynəlxalq hüquqa zidd müstəvidən çıxış etməklə Avropa Parlamenti Avropa xalqlarının iradəsini ifadə edən bir qurum olmadığını tam isbata yetirib. Bu ali orqan qəbul etdiyi və adi kağız parçasından başqa bir şey olmayan qətnamələrlə Avropa dəyərlərinə də xəyanət etdiyini, müxtəlif siyasi dairələrin, qrupların maraq və mənafeləri naminə fəaliyyət göstərdiyini nümayiş etdirir.

### Ermənistan təkcə Azərbaycanın yox, dünyanın mədəni irsinə qarşı cinayət törədib

Bakının mərkəzində erməni kilsəsini qoruyan, təmir edən Azərbaycan dövləti bütün tarixi, mədəni, dini abidələrə daim hörmətlə yanaşıb. Qarabağ ərazisində, o cümlədən mədəniyyət paytaxtımız Şuşada ermənilərin özünküləşdirməyə çalışdığı qədim alban kilsələri təmir edilir. Özü də bu kilsələrin bir çoxu Ermənistanın işğalı zaman yararsız hala salınıb. Ölkəmiz lüteran və rus-pravoslav kilsələrini, çoxsaylı sinaqoqları bərpa edib. Bundan başqa, bəllidir ki, Azərbaycan Fransa, Vatikan, Rusiya, Macarıstan və digər ölkələrdə kilsələrin bərpasına dəstək verib. Lakin Avropa Parlamenti bunu görməzlikdən gəlir.

Məlumdur ki, Qarabağ və ətraf rayonlarda tarixi əhəmiyyət kəsb edən 62 məscid, rayonların ərazisindəki 26 tarixdiyarşünaslıq muzeylərindən on minlərlə qiymətli muzey əşyası və eksponatı talan edilərək Ermənistana, oradan da başqa ölkələrə aparılıb. 927 kitabxanadan 4.6 milyon kitab və əlyazma əsərin bir qismi yandırılıb, bir qismi də Ermənistana daşınıb. Bütün bunlar hamsısı konkret sübutlar əsasında tsdiqini tapıb. Lakin belə açıq faktlara Avropa Parlamenti lazımı qiymət verməyib. Qarabağ və ətraf rayonlarda baş verən bu vandalizm və talan siyasətindən sadəcə türk, İslam abidələri deyil, ilk insan məskənlərindən olan Tağlar və Azıx mağaraları, tunc dövrünə ait Ağdamdakı Çıraqtəpə yaşayış yeri, kurqanlar, müxtəlif alban məbədləri da nəsibini alıb. Deməli, Ermənistan təkcə Azərbaycanın yox, dünyanın mədəni irsinə qarşı cinayət törədib. O da xüsusi qeyd edilməlidir ki, tarixi-mədəni abidələrimizə qarşı törədilən soyqırım aktı təkcə işğal altında olmuş ərazilərimizdə deyil, etnik təmizləmə siyasəti nəticəsində 250 mindən artıq azərbaycanlının öz dədə-baba yurdlarından didərgin salındığı, minlərlə insanımızın qətlə yetirildiyi digər tarixi torpaqlarımız olan İrəvan, Göyçə, Zəngəzur, Dərələyəz mahallarında da aparılıb. Bu ərazilərdə də xalqımıza məxsus maddi-mədəni irsə qarşı vandalcasına dağıdıcı münasibət sərgilənib, onları yer üzündən tamamilə silmək kimi çirkin siyasət həyata keçirilib. Təkcə XX əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində hər biri bir memarlıq əsəri olan üç yüz on məscid mövcud olub. Lakin hal-hazırda Ermənistan ərazisində azərbaycanlılara məxsus bu kimi tarixi-memarlıq abidələrindən yalnız ikisi saxlanılıb. Onlardan biri - İrəvan şəhərindəki Göy məscidir ki, onu da mənfur ermənilər təmir və rekonstruksiya adı altında dəyişdirərək "Fars məscidi", digəri isə- İrəvan yaxınlığındakı Əmir Səəd məqbərəsidir ki, onu da "Türkmən abidəsi" kimi tanıtmağa çalışırlar. Eyni zamanda Ermənistan ərazisində digər maddi mədəniyyət nümunələrimiz də dağıdılıb. Amma bunlara dünyanın bir sıra qurumları, o cümlədən də Avropa Parlamenti lazımı qiymət vermək istəmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**